
KEÇMIŞƏ SƏYAHƏT



İnsan gələcəyə öz keçmişinin çiynində gedir .

Ömrümün altmış beşinci ilinin



astanasında, xəyalən uşaqlıq illərinə qayıdaraq, keçdiyim keşməkeşli, enişli – yoxuşlu həyat yoluma yenidən nəzər salmaq qərarına gəldim. Acılı, şirinli, xatirələrlə dolu, ötən günlərin bəzi anlarını xatırlamaq nə qədər xoş təəssürat yaratsa da , bəzi hadisələr aradan illər keçsə də öz ağrılı izini yenə də biruzə verir .Bunları qələmə almağın zəruri olub – olmamasını, daxilimdə gedən uzun tərəddüd hissindən sonra üstələdim. Qiyabi olaraq xəyallarımın dolaşdığı otuz bir ildir ki, ayrı düşdüyüm əfsanəvi məkana, Xocalımıza döndüm . Atalı - analı , qardaşlı - bacılı



firavan illərimizin ömür kitabını yenidən vərəqlədim . Elimizin müdrik ağsaqqallarından, ağbirçək nənələrimizdən eşitdiklərimi bir – bir yaddaşımda canlandıraraq, oxuduqlarımı və həyatda qarşılaşdığım qeyri - adi hadisələri də xatirələrimə əlavə etməklə qələmə aldım. Həyatımın idealı sandığım natamam orta təhsilli , müdrik el ağsaqqalı atamın zaman - zaman verdiyi öyüd nəsihətlər , danışdığı həyat hekayələri bu yazımın əsas süjet xəttini müəyyən etdi .Yazılarımda hardasa qeyri dəqiqliyə yol versəm və yaxud kiminsə adını unutsam yəqin ki, oxucularım bunu mənə irad tutmazlar. Ötən illər bəzi tarixləri və adları yaddaşımdan silmişdir.Bəlkə də bu yazım kiməsə maraqsız , mənasız görünə bilər. Ancaq bu acılı, şirinli xatirələrin hər anından keşmişimizin bir parçasının boylanmasını nəzərə alaraq , çəkilən əziyyətin hədər getməyəcəyinə məndə əminlik hissi yaranır . "Deyilən söz yadigardır". Hər bir insan özündən sonra həyatda bir iz qoyaraq getmək istəyir . ''Tikmədim özüm qalam , tikdim ki , izim qala'' el məsəli buna bariz nümunədir. Keçmişini unudan, gələcəyə doğru inamla addımlaya bilməz. Yaşadığımız dövr və yerləşdiyimiz coğrafi məkan gözlənilməz hadisələrlə doludur. Bunları qoruyub saxlamaq , gələcək nəsillərə çatdırmaq , hər birimizin mənəvi borcudur. Yazılarımda bəlkə də buna nail olmasam da, ən azından nəslimizin davamçıları, ulu baba və nənələrinin kimlər olmasını, hər zaman mübarizə

meydanı olmuş başı bəlalar çəkmiş Qarabağ torpağında zaman – zaman hansı təhlükələrə , əzab - əziyyətlərə məruz qalmalarını müəyyən qədər , bu yazılardan öyrənə biləcəklər.

Xocalı ölkəmizin ən qədim tarixə malik olan yaşayış məskənlərindən biridir. Soyqırım hadisəsinə qədər burada yeddi mindən artıq insan yaşayırdı. Xocalı bol sulu Qarqar, Badara və İlis çaylarının qovşağında yerləşir . Bakı – Laçın magistral yolu, Bakı - Xankəndi dəmiryol xətti , yaz və payız mövsümündə dağa və arana köç edən, saysız hesabsız mal-qara, qoyun sürüləri ən rahat və qısa yolla bu qədim yaşayış məntəqəsindən keçirdi . Muxtar vilayətin yeganə hava limanının burada yerləşməsi isə ərazinin strateji əhəmiyyətini daha da artırırdı.Xocalı , Əsgəranla Xankəndinin arasında, Əsgərandan 5 km, Xankəndindən isə 10 km aralıda yerləşirdi. Dağlıq Qarabağın ermənilər yaşayan Ağdərə (Mardakert), Xocavənd (Martuni), Ağoğlan(Hadrut) və Xocalı(Əsgəran) rayonlarının əhalisi ancaq Xocalıdan keçməklə, daşnak yuvası Xankəndinə(Stepanakert) gedə bilərdi. Əhalisinin əsasən əkinçilik və maldarlıqla məşğul olduğu qədim Xocalıda, son dövrlərdə sənaye güclü inkişaf dövrünü yaşayırdı. Rus imperiyası tərəfindən torpaqlarımızda məskunlaşdırılmış ermənilər zaman - zaman xalqımıza qarşı məkrli oyunlarını davam etdirmişlər. Qədim Xocalı torpağının əzəli sakinləri olan ulu babalarımızdan üzü bəri , müxtəlif dövrlərdə hamımız bunun ağrı – acısını dadmağa məcbur olmuşuq . Ötən əsrin əvvəllərində, 1905 – 1907 - ci ildə yaranmış qarışıqlıqdan istifadə edən erməni daşnakları, Xocalıya hücum edib, kəndə od vurmuşlar. Atamın anası Yasəmən nənəmiz bizə danışırdı ki, ermənilər Xocalıya ilk dəfə basqın edəndə yeniyetmə qız idim, çayı keçib Malbəyli kəndinə üz tutduq. Bu vaxt xəbər yayıldı ki , Məşədi kişinin qızı Mənzər kənddən çıxa bilməyib, evlərində qalıbdır. Bunu eşidən Mənzərin dayısı Süleyman kişi (Əlif Hacıyevin babası) atını yenidən yaz selindən aşıb - daşan çaya vurub, Xocalıya qayıdır. Xeyli vaxt keçəndən sonra qız da atın tərkində geri dönür. O, evə yaxınlaşanda görür ki, ermənilər kəndin baş tərəfindəki evlərə od vurublar. Erməni daşnaklarının ulu babamız Məşədi kişinin evinə çatmasına cəmi beş ev qalıbmış . Təəssüf hissi ilə qeyd edirəm ki, körpə yaşlarında xilas edilən Mənzər bibimizi 1992 – ci ilin Xocalı soyqırımında, evinin qarşısında erməni daşnakları ahıl yaşında qətlə yetirdilər. Yaz yağışından coşmuş Badara və Qarqar çaylarını atların üzəngisindən yapışaraq keçən insanlardan bəzilərini, erməni yırtıcılarından xilas ola bilsələr də, sel aparır. Yasəmən nənəm danışırdı ki, gənc ana uşağı şalla kürəyinə bağlayaraq ermənilərin əlinə keçməmək üçün özünü göylə gedən yaz selinə vurur. Su onu axıdanda çayı keçən mallardan yapışaraq xilas olur. Çayın kənarına çatanda kürəyindəki şalı boş görüb fəryad qoparır. Havalanıb özünü yenidən lilli sulara vursa da kürəyindən selin alıb apardığı körpəsini tapa bilmir.Bundan bir neçə il sonra min doqquz yüz on yeddinci ildə ermənilər, yenidən yaranmış vəziyyətdən istifadə edərək, Xocalıya basqın etmiş, yenə də evlər yandırılmış, əhali yaxınlıqda olan Malbəyli kəndinə üz tutmuşdur. .Ara sakitləşdikdən sonra yurduna dönən Xocalılar yandırılmış kənddən təxminən beş kilometr aşağıda, kəndin ağsaqqalı Səfyar kişinin məsləhəti ilə yeni yaşayış yeri seçirlər. Orada yeni evlər tikərək yaşamağa davam edirlər. Köhnə kəndimizin xarabalıqları Qışlaq deyilən yerdə qalsa da , sovet rejiminin repressiyalarından ehtiyat edən valideyinlərimiz bizə bunun erməni vəhşiliyi nəticəsində baş verdiyini deyə bilməmişdilər. Atamla Qışlaqlar deyilən yerdə mal-qaramızı , atımızı otaranda , uşaq marağı ilə verdiyim suala, o qısa bir cümlə ilə: - Əvvəllər kəndimiz burda olubdur.- cavabını verərdi .

Xocalı kənd sovetliyi - Xocalı, Qaladərəsi , Qaçqınlar adlandırılan kəndlərdən və Həsənabad qəsəbəsindən ibarət idi . Əslində bu ərazidə Xocalı adlı qədim bir kənd və bu kənddə xeyri , şəri bir olan xocalılar yaşayırdı . Müxtəlif məkanlarda yerləşməsinə baxmayaraq Xocalı məktəbi , Xocalı mağazası , Xocalı poçtu , Xocalı qəbirstanlığı , Xocalı türbəsi , Xocalı kurqanları və s. adlanması buna bariz nümunədir . Lakin sovet dövrünün

inzibati idarəetmə üsullarına görə vahid məkan , şərti olaraq dörd hissəyə bölünmüşdü . Baş verən hadisələrin cərəyan etdiyi məkanlardan bəhs edərkən istər - istəməz mən də bu şərti adlardan istifadə etmək məcburiyyətində qalıram . Bu da bəzən oxucularım arasında anlaşılmazlıq yaradır .

Sovetliyin ən böyük yaşayış məntəqəsi olan Xocalı kəndi əsasən keçmiş bəyliklərdən ibarət olmuş və yerli xocalılar sayılırdılar. Butun nəslimiz bu kənddə dünyaya göz açmışdır. Qeneral polkovnik Ramil Usubov, millət vəkili Elman Məmmədov, alimlərimiz Mübariz Allahverdiyev, Bəkir Məmmədov, Milli Qəhrəmanlarımız Tofiq Hüseynov, Əlif Hacıyev , Ələsgər Novruzov, Xocalı soyqırımı haqqında ilk filmin yaradıcısı Əlfi Şükürov , ölkənin əməkdar həkimləri Eldəniz Allahverdiyev , Məmməd Nağıyev və onlarla tanınmış insan bu kəndin yetirmələridir. Uşaqlıq dövrünün kövrək xatirələrinin yaşadığı tam orta məktəb, sovetliyin ən geniş klubu, uşaq bağçası, kənd mağazası, sovxoz kitabxanası bu kənddə inşa olunmuşdu .

Qaladərəsi kəndində ta qədimdən Laçın və Kəlbəcər rayonlarından köçüb gəlmiş , eyni zamanda Qərbi Azərbaycandan məcburi köçürülmüş soydaşlarımız məskunlaşmışdılar. 1967 - ci ildə Xankəndi şəhərinin mərkəzində üç nəfər günahsız azərbaycanlının ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirilməsinə qədər, sovet dövründə bu kəndə köçürülmüş təxminən 5 -10 erməni ailəsi də yaşayırdı .Xocavənd kənd sakinləri olan , üç nəfər günahsız məhkum edilmiş azərbaycanlı , günün günörta çağında Xankəndi şəhərinin mərkəzində yandırıldıqdan sonra , Qaladərəsi kəndində yaşayan ermənilər bundan qorxuya düşərək yenidən qonşu erməni kəndlərinə köçüb getdilər . Milli Qəhrəmanlarımız Araz Səlimov, İnqilab İsmayılov , şair Allahyar və Ələmdar Quluzadələr bu kəndin yetirmələridir. Bu kənddə o zaman yalnız dördillik - ibtidai məktəb, klub və kənd mağazası fəaliyyət göstərirdi.

Qaçqınlar kəndində Şuşa qəzasından, ermənilər Cənubi Qafqaza gətirildikdən sonra Qərbi Azərbaycannın Dərələyəz mahalından məcburi köçurülmüş soydaşlarımız və İkinci Dünya müharibəsidən sonra inqilabi baxışlarına görə təqib olunan Cənubi Azərbaycandan köçüb gəlmiş insanlar yaşayırdılar. Bu kənddə qaçqınlar məskunlaşdığı üçün Qaçqınlar, bəzən məcburi tərk etdikləri yurd yerlərinin xatirəsinə Dərələyəz kəndi də deyirdilər. Kənd soveti, sovxozun qarajı, aeroport, səkkizillik məktəb, poçt, feldşer - mama məntəqəsi, klub və gündəlik tələbat mağazası, uşaq bağçası bu kənddə yerləşirdi. Əsgəran - Xankəndi mağistral yolunun üstündə yerləşdiyi üçün erməni hücumları ən çox bu kəndin payına düşürdü. Milli Qəhrəman Fizuli Rüstəmov , şair tərcüməçi Yusif Savalan, Birinci Qarabağ müharibəsi illərində şücaət göstərmiş Rəfayıl, Rövşən, Əlyar , Namiq kimi igid oğullar , bu kəndin yetirmələridir. Həsənabad qəsəbəsində ermənilər və azərbaycanlılar bir yerdə yaşayırdılar. Sovxoz idarəsi, təmir tikinti briqadası, kökəltmə birliyi, Ceyranbatan gölü, dörd nömrəli səyyar mexanikləşdirilmiş tikinti idarəsi, meyvə bağları, quşçuluq ferması burada yerləşirdi. Qarabağ hadisələri başlayan kimi azərbaycanlı ailələr, erməni təqibindən qurtarmaq üçün bu qəsəbədən Xocalıya köçdülər. Qarabağ hadisələrinə qədər yaxından tanıyıb, çörək kəsdiyimiz bu qəsəbədə yaşayan bəzi ermənilər faciə ərəfəsində Xocalılara qarşı xüsusi amansızlıq göstərmişdilər. Onlardan üç nəfəri interpol xətti ilə beynəlxalq axtarışa veriliblər .

Ata və anam yerli Xocalı olmaqla,



hər ikisi elimizin tanınmış , məşhur nəsillərindəndirlər. Ata babam Həzrətqulu kişi əslən Kərkicahan kəndindəndir. Onun ulu babası Hüseyin kişinin adından bu ğün də nəslimiz soyad kimi istifadə edir . Onun Bayram adlı oğlu çox baməzə insan olubdur. Üzünü görmədiyim Həzrətqulu babamın dəyirmançı Müseyib , Xankəndi kolxoz bazarının uzun illər müdiri işləmiş Xaspolad adlı qardaşları olubdur. Müseyib kişi çox cəsarətli , təmkinli bir insan olubdur. Kərkicahan kəndindən xeyli aralıda, meşənin ortasında yerləşən su dəyirmanının həyətinə bir gecə ayı gəlir. Arvadı Salatına deyir ki, tez tüfəngi gətir. Tüfəngi götürüb ayının dalınca qaçır. Yaxınlaşıb ayıya atəş açır. Tüfəng açılmır. Baxıb görür ki, tələsikdə Salatın ov tüfəngi əvəzinə, böyük oğlu Şafanın oyuncaq tüfəngini ona veribdir. Ayı duyuq düşməmiş tüfəng dalınca dəyirmana qayıdır. Onun Şafa, Kamran, Kamil, Rəcəb adlı övladları olubdur. Həzrətqulu babam deyilənə görə sakit təbiətli, mülayim xasiyyətli bir insan olubdur. Qədim dövrlər üçün çox gərəkli olan, o vaxtlar üçün nadir peşə sayılan, dəlləklik sənətinin sahibləri tək saç, üz qırxmaq deyil, qan almaq, sünnət etmək işlərini də yerinə yetirirmişlər. Babam öz dövründə bu sənətin mahir ustası olubdur. Atam danışırdı ki, yaxınlıqda olan obalara çıxıb geriyə dönəndə, babam qazandığı pulu müştərinin sinəsinə saldığı mələfənin arasına yığıb gətirər, evdə sayarmışlar. Bir yay günü Həzrətqulu babam, Yasəmən nənəmlə yaylaq yerimiz Meydan düzündən Xocalıya qayıdırmışlar. Həm ziyarət,

həm ticarət, sərin dağ havasında istirahətlə yanaşı, elat camaatına da xidmət göstərib xeyli pul da qazanıbmış. Yasəmən nənəm illər sonra bizə nağıl edirdi ki, “Güləmbər uçan” deyilən yerdə, qaçaqlar qabağımızı kəsdilər. Elə bildik ki, qaçaqlar öldürmək və ya soymaq məqsədi ilə bizi saxlayıblar. Babam deyib ki, üstumdə olan pulların hamısını götürün, ancaq ailəmə toxunmayın. Bizi qaçaqbaşı Rzaqulunun yanına apardılar.Zəhimli bir insan olan Rzaqulu dedi ki: qorxmayın burda sizə kimsə güldən ağır söz deyə bilməz. Biz hökumətdən qaçaq düşmüşük. Sizin kimilərlə heç bir işimiz yoxdur. El- obadan ayrı düşmüşük, saç - saqqal bizi basıbdır, ailəni atdan düşür, yerbəyer et, ailən bizim bacımızdır. Saçımıza, üzümüzə əl gəzdir , haqqını kəsmərik . Babam işə başlayır. Qurtaranda puldan əlavə, nə qədər də atımıza pendir, yağ, ət yüklədilər, özümüzə də möhkəm tapşırdılar ki, nə dəvə görmüsünüz, nə də ki izini . Yerimizi heç kimə bildirməyin.

Sakit təbiətli Həzrətqulu babamdan fərqli olaraq atamın anası ucaboylu , yaraşıqlı Yasəmən nənəm ötkəm xasiyyətli bir qadın idi. Onun şuşalı tacir olan ilk həyat yoldaşı rəhmətə gedir. Böyük qızı Əzət mamamı da götürüb kəndə - qardaşı Alıoğlu Məhəmmədin yanına dönür. Kiçik qızı Zərqələm mamamı isə, atasının övladı olmayan bacısı övladlığa götürüb böyüdür. Əzət mamam ailə qurub Mingəçevir şəhərinə köçür. Həyat yoldaşı qatar qəzasında həlak olandan sonra ailə qurmaylb, ömrunu tək - tənha başa vurur. O , mənim ad günümdə səksən altı yaşında dünyasını dəyişdi. Zərqələm mamam İbrahim adlı bir nəfərlə ailə qurub Bərdə şəhərində yaşayırdı. Onun Oqtay, Eldar, Həqiyyə, Asimə, Zəhra, İlham, Kəmalə adlı övladları vardı. Ögey olsalar da mamalarımın Xocalıya gəlişi əsil bayram olardı. Atamın bacılarına olan istəyi hədsiz idi.

Yasəmən nənəm Xocalının tanınmış simalarından olan Alı kişinin qızıdır. Böyük ailə sahibi olan Alı babanın meydan düzündə, ayrıca yaylaq yeri vardı. Ora Alı düşən yer, Alının yurdu deyirdilər .Onun Məhəmməd, Sarı, Əli, Çərkəz, Yasəmən, Gilə, Mülayim, Firəngiz adlı övladları olubdur. Yerli Xocalının bəlkə də üçdə biri bu nəslin törəməsi idi. Uca boylu, qolu qüvvətli davamçıları olan bu nəsil bir qədər də davakarlığı ilə seçilirdi.

Cümşüd babam köklü bir nəslin davamçısı olub, Əzizovlar nəslindəndir. Ulu babası Əbdüləziz kişinin Türkiyədən gəlmiş kəngərli tayfasından oduğunu deyirdilər. Babamın atası Məşədi kişi Boz dağının ətəyində milli münaqişə zəminində ermənini öldürdüyünə görə həbs olunur, bir daha geri dönmür.


Ana babam Cümşüd kişi sərt təbiətli, tünd xasiyyətli, çörəkli kişi idi. Dəli Kür romanının Cahandar agasına tək xasiyyəti ilə deyil, eyni zamanda zahiri görünüşü ilə də çox bənzəyən babam, bir çanaq unun bir ovuc qızıla dəyişdirildiyi vaxtda, yəni İkinci Dünya müharibəsinin aclıq illərində, işlətdiyi su dəyirmanının unu ilə təmənnasız olaraq, nə qədər insanı aclıqdan, ölümün pəncəsindən qurtarmışdı .

Cümşüd babamın Müseyib, Əzim adlı qardaşları, Mahı və Mənzər adlı bacıları olubdur. Sovet hökumətinin kəsakəs vaxtlarında belə babam, namaz qılar, oruc tutar, aşuralarda yas saxlayardı. Ağdamın tanınmış ruhanisi molla Hüseyin, kəndimizdə ruhani olmadığı üçün, yas məclislərinə gələndə gecələdiyi məkan ancaq babamın evi olardı. Ermənilər Xocalıda ateizm bəhanəsi ilə ruhani, məscid, aşura və s. bu kimi dini mərasimləri tam qadağan etmişdilər. Aşura günlərini qeyd etmək üçün xocalılar Ağdam məscidinə üz tutardılar . Üzündə nadir hallarda təbəssüm görünən bu ucaboylu , əli təsbehli , ağzı dualı, qaraqabaq, gümüşü papaqlı kişinin evinin qapısı hamının üzünə açıq idi. Qohumların ata - anasını itirən övladları bu evdə böyüyər, toyları edilərdi.

Saray nənəmin babası Əliqulu bəy olubdur. Onun atası kəndmizin məşhur bəylərindən olan Cəfər bəy , Xocalıda böyük mülk sahibi olubdur. Cəfər təpəsi adlanan ərazidə olan torpaq sahələri ona məxsus olubdur. Bəy nəslindən olan Saray nənəm, Cümşüd babamın

əksi idi.Xanım- xatın, ipək kələfi kimi yumşaq xasiyyəti olan nənəm, əsil el ağbirçəyi, qanbarışdıranı idi .

Anamgil üç bacı, iki qardaş



olublar. Evin böyük övladı xalam Zeynəb , sonra Əkbər dayım, Qüdrət dayım, anam və

xalam Münəvvər dünyaya gəlir. Anam Minəşin təhsil almağa sonsuz həvəsi olsa da, dayılarım: "Qız nədir, oxudu nədir"- deyərək buna maneçilik törədirlər. Əmək cəbhəsindəki uğurlarını, orta təhsilli olmasına baxmayaraq savadını, səlis danışığını nəzərə alaraq anamı, vilayətin xalq deputatları sovetinə seçirlər. Qısqanc xasiyyətli atam bütün sessiyalara, iclaslara anamı özü aparıb - gətirir. Nə qədər təzyiq etsələr də o, anamın Ali Sovetin deputatlığına namizədliyinə qarşı çıxır, kommunist partiyası sıralarından uzaqlaşdırılacağı hədəsi də kömək etmir.

1970 - ci ildə el ağbirçəyi Yasəmən nənəm, bəy qızı Saray nənəm, onun ölümünə dözə bilməyib bir qədər tündməcaz, sərt təbiətli, üçüm - qırxına qarışsın deyib, uşaq kimi gizlincə göz yaşı tökən Cümşüd babam, qohum - əqrəbanın başının yas yerinə qarışdığına görə baxımsız qalan, körpə vaxtlarında ağır keçirdiyi çiçək xəstəliyinin fəsadlarından əziyyət çəkən xalam Münəvvər dünyalarını dəyişdilər. Bir gün qonşumuz Qasım baba yeni dəfn etdiyi həyat yoldaşı Sayalı nənənin qəbrinə baş çəkib qayıdanda atama dedi ki, qəbirstanlığa goreşən dadanıbdır, təzə qəbirləri eşib, dağıdır. İşdən yorğun gələn atam və böyük dayım Əkbər ov tüfənglərini götürüb gecə səhərədək qəbirstanlıqda gecələyirdilər.Bizdə xahiş minnət edib, onların yanına düşüb gedirdik. Yanvar gecəsinin şaxtasında donmayaq deyə atam on dördüncü əsrə aid olan günbəzin içində ocaq qalayırdı. Dayımla növbə ilə qəbirstanlığı gəzib , qayıdırdılar.Goreşəndən isə bir xəbər çıxmırdı.Bir gecə yenədə günbəzin içində gözləyirdik. Əkbər dayım qəbirstanlığı gəzib qayıtdı, soyuqdan donan əllərini koz bağlamış ocaqda qızdırmağa başladı.Atam tüfəngi götürüb günbəzin içindən çıxdı. Təxminən gecə yarısı saat üç olardı. Bir azdan gecənin sakitliyini müdhiş bir ulama səsi və ardınca dalbadal açılan iki atəş səsi pozdu.Dayımla günbəzin içindən çıxıb, səs gələn tərəfə getdik. Atam dayıma dedi ki, gəl "gor eşəni" təhvil al. Uşaq olduğumuz üçün elə goreşən adı bizə kifayət idi. Qorxa - qorxa aralıdan qəbrin böyrünə uzanmış qara canlıya baxdım. Atam dedi ki, qorxmayın itdir, qəbri eşməyə başlayanda vurdum.Qəbristanlığa ziyarətə gedənlər, əsasən də qara bayramlarda, məzarın üstünə yemək şeyləri, xonça qoyardılar. Bu it də dadanıb ora, yemək tapmayanda isə təzə qəbirlərin torpağı yumşaq olduğundan eşib, yemək axtarırmış.

Bədnam qonşularımız nəinki , ölkəmizin xaricində eləcə də daxilində yerli əhalini sıxışdırıb, haqqını mənimsəyir, torpaqlarını zəbt edirdilər. Bir tərəfdən Daşbulaq, bir tərəfdən Mehdikənd və yeni salınmış Noraguğ kəndləri, Xocalının əkin - biçin sahələrini, mal - qara örüşlərini tədricən zəbt etmişdilər. Anamın əmisi müharibə veteranı Əzim kişi bundan, Stepanakert və Əsgəran rəhbərliyinə şikayət etsə də nəticəsiz qalır, hələ onun özünü günahkar çıxarmağa çalışırdılar. Əzim əmi deyirdi ki, sovet hökuməti qurulan vaxtı, sərhədlərimiz təyin olunanda yeri qazıb yanmış kömür basdırıblar, şübhəniz varsa gedək qazaq, köhnə sərhəddi sizə sübut edim. Boz dağının üstündə yerləşən, sonradan dolu dağıdan topların yerləşdirildiyi köhnə erməni kəndində cəmi beş - on ev olardı. Guya ki, suyu olmadığı üçün həmin kəndi köçürüb İlis çayının kənarında şəhər tipli böyük bir müasir qəsəbə inşa etdilər. Noragüğ, yəni Yeni kənd Ermənistandan köçürülüb gətirilən ermənilərin hesabına qısa müddət ərzində artırılıb şəhər tipli bir qəsəbəyə çevrildi .

Noraguğ kəndi yeni salınanda orda məskunlaşan ermənilər bizimlə ehtiyatla davransalar da , zaman keçdikcə quduzlaşırdılar. Yay fəslində isə Ermənistandan gələn daşnaklar aranı daha da qızışdırır , kəndin kənarında olan tut bagı , İlis çayında olan gölün kənarı , dava - dalaş meydanına çevrilərdi. Bizim yaşlı nəsil bu uşaq davalarına müdaxilə etməsələr də , ermənilər irili - xırdalı üstümüzə tökülüşürdülər. İlisin suyu bulanıq olsa da, ordan çıxarılan çınqıl yataqlarının yeri su ilə dolub dərin göllər yaradırdı . Badara çayının suyu təmiz və şəffaf olsa da , gölləri dayaz olduğundan , İlisdəki göllər dərin olduğuna görə ora can atardıq. Sağ tərəfdə ermənilər, sol tərəfdən də biz gölə baş vurardıq . Bunun sonu isə adətən dava ilə

bitərdi . Ermənilər dərinə baş vurmaqdan qorxduqları üçün, dayaz yerdə qaz çimişi edib eşələnir , lilli suyu bulandırırdılar .

İsti bir yay günü idi. Sərçəli deyilən ərazidə atam dəryazla ot biçir, mal qaramıza qış yemi tədarük edirdi. Mən də arabanın kölgəsində uzanıb dincəlir, arada gücüm çatan xırda işlərdə ona kömək edir , Ilis çayındakı qaynama bulaqdan ona sərin su daşıyırdım. Günorta kəndimizdən beş altı nəfərlik bir dəstə yeniyetmə tut bağına gəldi. Xalam oglu Vəkil də daxil olmaqla, orta məktəbin yuxarı sinif şagirdləri ilə Noraguğ kəndinin dığaları arasında mübahisə düşdü. Sayca bizimkilərdən çox olan ermənilərlə dava - dalaş başladı. Dava haqqında Noragüğ kəndinə xəbər çatanda əlinə balta, dəhrə, lapatka götürmüş ermənilər, yük maşınlarının kuzovuna doluşub tut bağına axışırdılar. Elə bil ki , orta əsrlərdə olan müharibə başlamışdı. Uşaqlar qaçır, bir sürü erməni isə İlis çayını keçib onları təqib edirdilər. Qaçan uşaqlar təpənin üstündə ot bicən atamı görüb bizə tərəf yüyürdülər. Atam tez işini dayandırıb dəryazın sapını çəkiclə vurub çıxardı, dəyənək kimi əlində hazır tutub ermənilərin qabağını kəsdi. Atamı yaxşı tanıyan ermənilər onun yanından keçməyin asan başa gəlməyəcəyini anlayıb dayandılar. Bundan istifadə edən yeniyetmələr ildırım sürəti ılə, özlərini üzüm bağına vurub aradan çıxdılar. Atam ermənilərə dedi ki, ayıb



deyil, burda qonşuyuq, uşaqlar dalaşıb, tənbeh edəcəyik. Siz niyə uşaq davasına qoşulursunuz.Atamı yaxşı tanıyan ermənilər dalaşmaq həvəsindən daşındılar .Mənə elə gəldi ki, atamın əlində olan iki metrlik dəryaz sapı ermənilərə , dediyi sözlərdən də inandırıcı təsir bağışladı. Daş dəymiş ayı kimi donquldana - donquldana geri döndülər. Ermənilərdən biri ultimatum verdi ki , sizinkilərin ayağı birdə tut bağına dəyməsin , yoxsa

axırı çox pis olacaq . Təhlükəni gözləməyib həmişə üstünə gedən atamla bir azdan İlis çayının içində olan qaynama bulağa getdik , sərin suda əl üzümüzü yuyub , tut ağaclarının kölgəsində günorta çörəyini yedik . Axşam sərini düşənə qədər orda dincəldik .Ermənilərdən nə ora gələni , nədə ki , bizi narahat edəni olmadı.Bütün atalar övladlarının gözündə ən güclü, məğlub edilməz bir varlıqdır. Həmin gün isə atam mənim gözümdə daha da ucaldı. Sevərək oxuduğum nağılların əfsanəvi, qorxubilməz bir qəhrəmanına çevrildi. Hündür boylu, qədd - qamətli atam fiziki cəhətdən həddindən artıq qüvvətli olsa da, dava - dalaş sevməzdi. Məcbur edildiyi mübahisələri sözlə qaydasına qoymağa çalışardı . Sözdən kar aşmayanda isə, bu   mübahisə onu başlayanın peşmançılığı ilə bitərdi.O , vaxtlar yük maşınları çox az idi. Olan texnika da təsərrüfat işlərinə cəlb olunduğundan kəndlilər otu, kolu, odunu at arabası ilə daşıyardılar .Günlərin birində atam Ağdam bazarından təzə aldığı yük atını arabaya qoşdu .Həmişə olduğu kimi az qala bir yük maşınının otunu arabaya yığıb evə qayıdırdıq. Yaxınlıqda Rüstəm kişinin evi yerləşdiyi üçün , Rüstəmin təpəsi deyilən yoxuş yolun ortasında at dayandı. Arabadan düşdük, atam cilovu əlinə alıb, atı nə qədər çəksədə , at yükü yoxuşun başına çıxara bilmədi. Bu zaman atı arabadan açıb yüyəni mənə verdi. Özü otla dolu arabanı yoxuşun başına çıxardı .Təzədən atı arabaya qoşub evə gəldik. Şənbə gecəsi ata minib kəndimizdən otuz kilometr aralıda yerləşən Ağdamın mal bazarına getdi. Bazar günü atı satıb , başqa at alaraq Xocalıya qayıtdı. Deyirdi ki, yarı yolda yerləşən, indi erməni vəhşilərinin yerlə yeksan etdiyi Qaraağacı qəbirstanlığında özüm də bir qədər yatıb dincəlirəm, at da qəbirstanlığın kənarında olan otlardan yeyib dincəlir, sonra yola davam edirəm.

Evin yeganə oğlu olan atam, erkən yaşlarında atasını itiribdir. Bundan sonra ailə qurmayan Yasəmən nənəm ona həm ata, həm də ana olsa da, evin yükü atamın çiyninə duşmuşdur. Orta məktəb partasından ucaboy olduğu üçün, sənəddə yaşı artırılaraq, başqasının yerinə qanlı - qadalı İkinci Dünya müharibəsinə göndərilmiş, Şimali Qafqaz döyüşlərində iştirak etmişdi. Deyirdi ki, hər iki - üç əsgərə bir karabin silahı düşürdü. Komandirlərimiz deyirdi ki, hücuma keçəndə görsəniz ki, yoldaşınız vuruldu, onun silahını götürüb döyüşə davam edin . Günlərin birində Mir Cəfər Bağırov Şimali Qafqazda yerləşən hərbi hissələrə baş çəkir .Müttəfiq Respublikanın rəhbəri kimi o , hərbi şuranın üzvü imiş. Azərbaycanlı əsgərlər Bağırova rus dilini bilmədiklərindən ,   əmrlərini başa düşmədikləri şovinist rus komandirin onlara fərari , vətən xaini damğası vurmasını , hətta bəzi yoldaşlarının güllələnməsindən şikayət edirlər. Bağırov sıra qarşısında ona məruzə edən komandirlə azərbaycan dilində danışır. "Mən Sizi başa düşmürəm yoldaş hərbi şuranın üzvü"- deyən komandirə cavab verir:"Alçaq , bu əsgərlərin çoxunu dağlardan, kolxoz işindən ayırıb vətəni qorumağa göndərmişik .Onlar rus dilində əmri başa düşmədikləri üçün fərari, xain damğası vurub hansı haqla onları güllələyirsən?".Bunu deyib sıra qarşısında onu vurur. Stalinlə təcili görüşüb azərbaycanlı əsgərlərə milli kadrların rəhbərlik etməsi məsələsini həll edir. Bu diviziyalardan biri Taqanroq şəhərini faşistlərdən təmizləyir və 416 - cı Taqanroq diviziyası adını alaraq, döyüş yolunu Berlində başa vurur . Atamın xidmət etdiyi atıcı diviziya isə Irana göndərilir. Hər yeni il bayramında süfrəyə qoyulan mandarini görəndə gözləri dolurdu .Deyirdi ki, yük vaqonlarında İrana gedirdik .Bir düzənlik yerdə vaqon dayandı. Qar basmış bağlarda, ağacların üstündə mandarin qalmışdı. Ac əsgərlər bu meyvələrə daraşdı. Komandirlər özünü çatdırana qədər , əsgərlər ayaz vurmuş mandarindən doyunca yeyib, hələ ciblərinə də doldurmuşdular Neçə əsgərimiz dizinteriyadan yolda öldülər. Vaqondan düşüb hərbi kolonla günlərlə piyada yol gedirdik. Dağlardan açılan atəşlərdən ətrafımda addımlayan əsgərlərdən neçəsi yaralandı , ölənlər oldu .Komandirlər isə biz beynəlmiləl borcumuzu yerinə yetirməliyik deyə, cavab atəşi açmağada imkan vermirdilər .Danışırdı ki , diviziyamız Maku və Xoy şəhərlərində olmuşdur. O, taylı qardaşlarımızın həyat tərzi, məişəti barədə maraqlı

söhbətlər edərdi . Mockvadan yoxlamaya gələn general sıranın ön cərgəsində dayanmış 16 yaşlı yeniyetməni görüb, onu ordudan azad edib arxa cəbhəyə göndərir. Taleyin qismətinə bax , İkinci Dünya müharibəsinin od alovundan atam sağ - salamat çıxıb vətənə qayıdır . Kolxozda yeyintili vəzifədə olan, öz yerinə azyaşlı bir yeniyetməni müharibəyə yola saldıran şəxs , müharibədən sonra kolxozda mövcud olan yeyinti hallarına görə uzunmüddətli həbsə göndərilir və geri qayıtmır. Təhsili yarımçıq qalan atam evin yeganə başı papaqlısı, çörək gətirəni olduğu üçün erkən kolxozda işləməyə başlayır , təhsilini davam etdirə bilmir . Qabarlı əlləri qızıl olan , əlindən həkimlik, elektrik montyorluğu, bağbanlıq və s. gələn atam ilk uğursuz nikahdan sonra anamla ailə qurur.Üç oğlu dünyaya gəlir.Bizə hər zaman düzlüyü, halal zəhmətin hər şeydən uca olduğunu təlqin edir.Ata və silaha olan məhəbbəti isə biz övladlarının da qanına hopmuşdu.Qardaşlarım Tofiq və Bakir qədər sərrast nişan vuran tək - tək tapılardı. Ağlım kəsəndən evimizdə qoşalülə ov tüfəngi və son anlara qədər səhhətinə görə minməsə də kəhər atımız olmuşdur.

Artıq qapımızda moskviç , jiquli markalı minik maşınları olsa da atam üçün atın yeri başqa idi. Son illər səhhətinə görə at minməsə də atı satmayıb saxlayardı . Xidmətdən asudə vaxtlarımda atamla birlikdə maşına oturub kənddən kənara , Daşbulaq , Qayabaşı kəndləri tərəfə gəzməyə çıxırdıq .Şahmalı Kürdoğlunun səsinin vurğunu idi. O, hər oxuyanda xəyala dalır, "belə səsin sahibi qazamatda yatarmı" deyib, ah çəkərdi. Birdən maqnitofonun səsini azalt deyib, özü də məlahətli səslə muğamatı davam etdirərdi. Xoşuna gələn göy çəmənlik görəndə maşını saxla deyər, maşından düşüb, bax buranı biç yığ baqaja , evə gedəndə atın axuruna tökərsən deyərdi. Nə qədər böyüyüb , ailə uşaq sahibi olsaq da, ata - ana zabitəsi, hökmü üzərimizdə idi. Anam ot daşıdığımı görəndə gülüb deyərdi ki, camaat atı saxlayır ot daşımağa, biz də ata ot daşıyırıq. Uzun qış gecələrində televizorun olmayan vaxtlarında atam başına gələn maraqlı əhvalatlardan bizə danışardı .

Müharibədən sonra bir gün kolxoz sədri atamı çağırtdırıb deyir ki, gedərsən Cümşüd kişinin yanına, mənim adımdan deyərsən ki, atını versin, minib gedərsən qış yatağında Qurban kişiyə mənim sifarişimi çatdırarsan. Atam deyirdi ki, o vaxt Cümşüd kişinin iki atlı furqonu vardı. Qara atı adla deyilirdi, onu yəhərlədim, yola düşəndə tüfəngi ilə patrondaşı da mənə verdi ki, silahsız getmə, üzü gecəyə gedir.

Həmişə həvəsində olduğu atı və tüfəngi bir anda, müvəqqəti olsa da əldə edən atam, özünü kənddən təxminən on kilometr aralıda Haça təpə deyilən qış yatağına çatdırıb, kolxoz sədrinin sifarişini yetirir. Kəngərli elinin tanınmış kişilərindən olan , gecə tövlədə mələyən qoyun - quzunu səsindən tanıyan, uzun illər qoyun fermasının müdiri işləmiş Qurban əmi, gələcək bacanağını çoban bozartmasına, tut arağına qonaq edir.Gecə yarısı atam geriyə qayıdır.Söhbət edirdi ki , təzə yağan qar gecəni gündüz kimi işıqlandırmışdı .Hər tərəf sakitlik idi .Adı dillər əzbəri olan qara at sürətlə evə doğru irəliləyirdi. Demyələri keçəndən sonra at narahatlığını göstərməyə başladı . Sərçəliyə yaxınlaşanda isə qulağını şəkləyib, astadan fınxırdı .İlis çayı tərəfə aşanda təpənin döşü ilə bizə yaxınlaşan qaraltıları gördüm .Bilirdim ki, qış sərt gələndə canavar sürüsü kəndlərə yaxınlaşır. Tüfəngi çiynimdən çıxarıb, lüləyə patron qoydum, atı bağlamağa yer olmadığı üçün elə atın üstündən qabaqda gələn iri canavarı nişan alıb, tətiyi çəkdim. Tətik pistonu vursa da atəş açılmadı. Bir neçə dəfə tətiyi yenidən çəksəm də tüfəng atılmadı.Patronu dəyişib yenidən atəş açmağa cəhd etdim , nətisəsi olmadı. Canavar sürüsü bizi dövrəyə alırdı. Qarşı tərəfdə dayanan canavarlar, arxasını mənə çevirib , dal ayaqlarının arasından qarı üstümə sovurub yolu kəsir, arxada dayanan canavarlar isə üstümə atılmağa hazırlaşırdı. Tüfəngdən çarə olmadığını görüb yenidən çiynimə keçirdim .Ata güclü bir şallaq çəkdim. Qara at canavarların üstündən sıçrayıb kəndə doğru götürüldü.Yüyəni boşaltdım ki, at özü yolu seçsin .Canavar sürüsü bizi arxadan qovur, bəziləri isə yandan keçib yolumuzu bağlamağa cəhd edirdi.Allaha dua

edirdim ki, atın ayağı qarın üstündə sürüşüb yıxılmasın , belə olarsa ac canavar sürüsü bizi parçalayardı. Qara atın tərifi hədər deyilmiş , canavarlar nə qədər sürətlə qaçsalar da onu keçə bilmədilər. Kəndə yaxınlaşanda, canavar iyi alan itlərin hürüşməsi onları dayandırdı. Evə çatdım.Məlum olub ki, uzun illər Xocalı orta məktəbinin direktoru işləmiş kiçik dayım Qüdrət müəllim də, böyük dayım Əkbər də vaxtilə ov həvəskarı olublar. Babamdan gizlin arabir tüfəngi götürüb kəndin kənarına ova çıxırmışlar, babam bilməsin deyə atılan patronların içinə agır olmaq üçün bir az qum doldurub , kağız parçası ilə yenidən üstünü bağlayıb, patrondaşa doldururmuşlar. Bu da Qara atın qoçaqlığı olmasa, faciə ilə nəticələnə bilərdi.